# ZƏFƏR GÜNÜ VƏ QƏLƏBƏ PARADI



*"Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!*

*Bu günlərdə dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda, bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq. Mən bütün bu illər ərzində - 17 il ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm. Bu, mənə güc verir. Bu, mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir. Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam.*

*Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir.*

*Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!*

*Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"*

**Ali Baş Komandan İlham Əliyevin Azərbaycan xalqına 8 noyabr 2020-ci il tarixli müraciətindən**

2020-ci ilin 27 sentyabrında düşmənin növbəti təxribatı zəminində müzəffər ordumuzun qətiyyətli əks-hücumu ilə başlanan Vətən müharibəsi noyabrın 10-da tarixi zəfərimizlə yekunlaşdı. 44 günlük haqq savaşımızda erməni işğalçılarının başını "Dəmir yumruq"la əzdik, onları müqəddəs torpaqlarımızdan "iti qovan kimi" qovdu. Qalibiyyətimiz 28 ildən çoxdur ki, yağı tapdağında inləyən, yaşayış məntəqələri, infrastrukturu sökülüb dağıdılan, dini-mədəni abidələri vandallıqla viran qoyulan, təbii sərvətləri talanan torpaqlarımızla yanaşı, şəxsiyyətimizi, mənliyimizi də özümüzə qaytardı. Rəşadətli əsgərlərimiz canı, qanı bahasına Qarabağda addım-addım irəliləyərək, Vətən torpaqlarını azadlığa qovuşdurdu, bizləri ata-babalarımızın ruhu və gələcək nəsillər qarşısında xəcalətli, üzüqara olmaqdan xilas elədi. **4 oktyabrda** Cəbrayıl, **17 oktyabrda** Füzuli, **20 oktyabrda** Zəngilan, **25 oktyabrda** Qubadlı, **8 noyabrda** Şuşa şəhəri təcavüzdən qurtularaq əsl sahiblərini qoynuna aldı.

Azərbaycan rəhbərliyi bütün siyasi təzyiqlərə, xahişlərə, telefon zənglərinə, yalvarışlara baxmayaraq, Silahlı Qüvvələrimiz isə real çətinliklərə - mürəkkəb relyefə, soyuq hava şəraitinə, 30 illik düşmən istehkamlarına rəğmən, Xankəndiyə bayrağımızı sancmaqda israrlı idi. Vətənin mərd övladları yaralı halda, qanı axa-axa belə, döyüş meydanını tərk eləmir, onu güllə yağışı altından çıxarmağa çalışan yoldaşlarını da hücuma səsləyirdi. Azərbaycan xalqı – şəhid valideynləri, məcburi köçkünlər, yaralı qazilərimiz Ali Baş Komandandan dayanmamağı, artıq dəfələrlə metastaz verən bu erməni xərçəng şişini kökündən kəsib atmağı xahiş edirdilər. Lakin canlı qüvvəsini, texnikasını, iqtisadi potensialını itirməkdən əlavə, daxili siyasi böhranla üzləşən düşmən kapitulyasiya aktını imzalamağa hazırlığı barədə havadarlarını məlumatlandırdı, növbəti vasitəçilik üçün dünya liderlərinin ayağına yıxıldı. Nəinki





savaşın ilk günlərindən, hətta bundan çox-çox əvvəl ermənilərin 7 şərtini "cəhənnəmə göndərib" əvəzində yeganə – başıpozuq işğalçı dəstələrin torpaqlarımızdan biryolluq rədd olması tələbini irəli sürən müdrik Rəhbərimiz müəyyən məsələləri nəzərə almaqla uzaqgörən qərar verdi. Bütün bunlar isə ordumuzun Dağlıq Qarabağın incisi olan Şuşa şəhərini, onun ardınca bir gündə 70-dən artıq kəndi və 8 strateji yüksəkliyi ələ keçirməsindən sonra baş tutdu. Ermənistan diz çökdü və kapitulyasiyaya məcbur qaldı. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyası prezidentinin bəyanatı sentyabrın 27-dən başlanan zəfər yürüşümüzün məntiqi nəticəsidir və maraqlarımıza tam uyğundur.

Əlbəttə, qələbə qurbansız olmur, Müdafiə Nazirliyinin məlumatına görə, Vətən müharibəsində şəhidlik məqamına yüksələn 2783 nəfərdən 2756-sı artıq ana torpağa tapşırılıb. İtkin düşmüş sayılan hərbi qulluqçuların tapılması və şəxsiyyəti müəyyənləşməyənlərin identifikasiyası üzrə işlər davam etdirilir. Döyüş meydanında cəsur ordumuzla bacara bilməyən, mərd oğullarımızın qarşısından "siçan kimi" qaçıb gizlənməyə dəlmə-deşik axtaran qorxaq dığalar şərəfsiz məğlubiyyətlərinin əvəzini xain hücumlarla, cəbhə bölgəsindən uzaqlarda yerləşən şəhər və kəndləri, dinc əhalini - özü də gecə saatlarında, onlar yuxudaykən - atəşə tutmaqla çıxmağa çalışdılar. Gəncəyə, Tərtərə, Bərdəyə, digər ərazilərə endirilən qadağan edilmiş raket zərbələri kütləvi insan tələfatı və dağıntı ilə nəticələndi. Günahsız insanlara – yaşlılara, qadınlara, uşaqlara yönəlik erməni qəddarlığı nə boyda dərin yaralar açsa da, ölkə rəhbərliyi və xalqı zərərçəkənlərin dərdlərinə məlhəm oldular. Cənab Prezidentin sərəncamı ilə Vətən müharibəsi günlərində erməni terroru nəticəsində həyatını itirən 94 şəxsə şəhid statusu verildi, əmlakı, fərdi təsərrüfatı ziyan görən ailələrə pul kompensasiyası ödənildi.

Bəli, 44 günlük müharibə Azərbaycanın tam qələbəsi və Ermənistanın kapitulyasiyası ilə bitdi. Bu dövr ərzində 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər azad olundu. Düşmənin texnikası tam məhv edildi, canlı qüvvəsinə ciddi zərbə vuruldu. Ermənistan ordusu tamamilə darmadağın edildi, atəşkəs ərəfəsində artıq vahid komandanlığı olmayan, müqavimət qabiliyyətini itirmiş, özbaşına qalmış tör-töküntü vəziyyətinə düşdü.

Məhz Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Ermənistan Ordusunun məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi 44 günə dağıtdı, bütün qüvvələri xalqımızın iradəsi ilə hesablaşmağa vadar etdi, ərazi bütövlüyümüz bərpa olundu. Şuşa şəhəri, Xocavənd, o cümlədən Hadrut qəsəbəsi, Kəlbəcər, Ağdam, Laçının geri qaytarılması Dağlıq Qarabağa gedən bütün strateji yollar, yüksəkliklər, kommunikasiya xətlərinin tamamilə Azərbaycanın əlində cəmləşməsi deməkdir. Kəlbəcər, Ağdam və Laçının boşaldılması və Ermənistanla sərhəd bölgələrinin Azərbaycan Ordusunun nəzarətinə keçməsi ilə faktiki olaraq Ermənistanla Dağlıq Qarabağı yalnız 5 km-lik kiçik Laçın dəhlizi əlaqələndirəcək. Rusiya sülhməramlılarının nəzarəti altına verilən Laçın dəhlizində Ermənistan hərbçiləri olmayacaq və dəhlizin təhlükəsizliyi Azərbaycan tərəfindən təmin olunacaq.

Bu proses çərçivəsində Naxçıvan da blokadadan qurtuldu. Ötən əsrin doxsanıncı illərində münaqişə başlayanda Azərbaycanın əsas hissəsi ilə Muxtar Respublika arasında quru yolla rabitənin kəsilməsi böyük problemlər yaradırdı. İlk dəfə olaraq Ermənistan ərazisindən qısa yolla Naxçıvanla əlaqəmiz reallaşır. Bu yolun təhlükəsizliyi Rusiya FTX-nin Sərhəd Xidməti tərəfindən təmin olunur. Bu da onu göstərir ki, Ermənistan bütün mənalarda müstəqil deyil. Hətta işğaldan azad olunan məkanlardan keçəcək dəhlizin təhlükəsizliyini Azərbaycan təmin elədiyi halda, Ermənistan öz ərazisində belə, nəyəsə təminat vermək iqtidarında deyil.

Ən vacib məqamlardan biri, münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəzin yaradılmasıdır. Türkiyə mərkəzdə təmsil olunur. Türkiyə hərbçilərinin prosesdə iştirakı ona dəlalət edir ki, Azərbaycanın maraqlarının əleyhinə hər hansı addımın atılmasının qarşısı alınacaq. Azərbaycan Türkiyəni də fəal şəkildə münaqişənin tənzimlənməsi işinə cəlb edə bildi. Türkiyə hər zaman olduğu kimi, Qarabağ məsələsində də Azərbaycanın yanındadır və indi real olaraq bölgənin təhlükəsizliyinin əsas təminatçılarından birinə çevrilib.

Qlobal məsələlərlə bir-birinə qarşı daim ziddiyyət sərgiləyən həmsədr ölkələr, maraqlıdır ki, Qarabağ məsələsində eyni mövqedən çıxış edirdi. Bu mövqe Azərbaycanı işğalın nəticələri ilə barışmağa, Azərbaycan xalqının iradəsini sındırmağa və sərhədlərimiz daxilində - ətraf 7 rayon daxil olmaqla Dağlıq Qarabağda ikinci erməni dövlətinin yaradılmasına dəstək verirdilər. Sentyabrın 27-də Ermənistanın ardıcıl təxribatlarını dayandırmaq üçün Azərbaycanın həyata keçirdiyi əks-hücum həmlələrindən narahat olan vasitəçilər, xüsusilə Fransa ciddi cəhdlərlə bu prosesi dayandırmağa çalışdı. Prezident Makronun Rusiya, ABŞ rəhbərliyi ilə təmasları, ardıcıl Azərbaycan Prezidentinə zənglər etməsinin məqsədi də Ermənistanı tam iflasdan qurtarmaq idi. Təsadüfi deyil ki, sonda Fransa XİN öz simasını tam ifşa edərək, açıq ermənipərəst bəyanat da yaydı. Cənab İlham Əliyev isə dekabrın 12-də Azərbaycana səfər edən ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskonti, ABŞ-dan olan həmsədri Endrü Şofer, Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiklə görüşü zamanı bu qurumun münaqişənin həllində heç bir rol oynamadığını yenidən xatırlatdı: "...Mən sözlərimi yekunlaşdırıram ki, sizi dinləyim, çünki buraya gəlmək sizin ideyanız idi. Bunu bir daha kameralar qarşısında deyə bilərəm. Mən Minsk qrupunu səfərə dəvət etməmişəm. Məlumat veriləndə ki, Minsk qrupu gəlmək istəyir, etiraz etmədim. Bəlkə mənə sözünüz var. Əgər siz bunu kamera qarşısında söyləmək istəyirsinizsə, buyurun. Əgər istəmirsinizsə, mən onlara deyim getsinlər. Necə istəsəniz. Buyurun, sizi dinləyirəm".

Çox təəssüf ki, Ermənistan hələ də öz məkrli niyyətlərindən, təxribatçı planlarından əl çəkmək istəmir. Kəlbəcərin Zod qı-

zıl mədənində mənasız müqavimət şousu, Zəngilan-Qubadlı istiqamətində sərhədlərin dəyişdirilməsi cəhdi, separatçıların Xankəndidən davamlı sayıqlamaları, Xocavənd və Hadrut meşələrində gizlənən terrorçuların zərərsizləşdirilməsi zamanı daha dörd əsgərimizin şəhid olması və ikisinin yaralanması buna sübutdur. Əgər belə xain hərəkətlərə son qoymasalar, nəticə onlar üçün heç də ürəkaçan olmayacaq. Cənab Prezidentin buyurduğu kimi: "İndi mənə məlumat verilib ki, dünən ya erməni yaraqlıları, yaxud "Ermənistan ordusu" adlandırdıqları qalıqlar tərəfindən bəzi terror aktları törədilib. Bu, əlbəttə ki, narahatlıq doğurur. Mənə elə gəlir ki, Ermənistan yenidən başlamağa heç bir vəchlə cəhd etməməlidir. İki gün öncə şanlı Qələbəmizə həsr olunmuş hərbi paradda mən söylədim ki, əgər Ermənistan faşizmi yenidən baş qaldırarsa, biz onun başını dəmir yumruqla əzəcəyik. Buna görə onlar çox diqqətli olmalıdır ki, hər hansı hərbi əməlləri planlaşdırmasınlar. Bu dəfə biz onları tamamilə darmadağın edəcəyik".



*Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. Paradların birində mən demişdim ki, parada 2016-cı ildə Lələtəpə yüksəkliyində qaldırılmış bayraq gətiriləcək. Demişdim ki, gün gələcək, işğaldan azad edilən torpaqlarda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və bu gün gəldi. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır. Biz bundan sonra ancaq və ancaq irəli gedəcəyik.*

*Öz çıxışımı məşhur kəlamla yekunlaşdırmaq istərdim. Mən demişdim ki, "Qarabağ Azərbaycandır və nida". Bu gün bütün dünya görür ki, Qarabağ Azərbaycandır! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı! Yaşasın Azərbaycan əsgəri!*

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*






Dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı keçirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan Zəfər paradında iştirak ediblər.

"Dəmir yumruq" əməliyyatında - Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəyə həsr olunmuş Zəfər paradına müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyev komandanlıq edib.

Paradda 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlərin nümayişi olub. Həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun düşmələndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirilib.

Hərbi orkestrin ifasında "Azərbaycan fanfarası" dinlənilib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana raport verib.

Dövlət başçıları əsgərləri salamlayıblar.

Hərbi orkestr Azərbaycanın və Türkiyənin dövlət himnlərini ifa edib.

Prezident İlham Əliyevin təklifi ilə Vətən müharibəsi şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti rəhbərlərinin çıxışlarından sonra tribuna önündən fəxri keçid baş tutub.

Parada toplaşmış şəhər sakinləri və qonaqlar müzəffər ordumuzu alqışlayıblar.

**Qurban Məmmədov**